# BMU-da Ümummilli Liderin anım günü ilə bağlı tədbir





**Bakı Mühəndislik Universitetində (BMU) Yeni Azərbaycan Partiyası (YAP) Xırdalan şəhər 40 saylı ərazi təşkilatı ilə birgə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.**

Bu barədə verilən məlumata görə, böyük tarixi şəxsiyyətin zəngin fəaliyyətinə dair videoçarxın nümayiş olunduğu tədbirdə çıxış edən **universitetin rektoru Yaqub Piriyev** bildirib ki, Ümummilli Lider Heydər Əliyev siyasi fəaliyyəti boyu inkişaf edən, milli dəyərləri ilə tanınan, xarici dövlətlər arasında özünə layiqli yer tutan güclü Azərbaycan naminə böyük əzmlə çalışıb və dönməz prinsipləri, misilsiz tarixi xidmətləri ilə adını dünyada ən nüfuzlu liderlər cərgəsinə daxil edib. Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövrünə toxunan rektor 15 mindən artıq Azərbaycan gəncinin keçmiş SSRİ-nin adlı-sanlı ali məktəblərinə təhsil almağa göndərilməsini, milli kadrların hazırlanmasını, doğma dilin inkişaf etdirilməsini və dövlət strukturlarında azərbaycanlı məmurların irəli çəkilməsi kimi xidmətlərini Ulu Öndərin gələcək üçün atdığı olduqca mühüm addımlar kimi səciyyələndirib. Böyük liderin əsasını qoyduğu xaricdə təhsil ənənəsinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan rektor yeni Dövlət proqramlarının qəbul olunduğunu və hər il yüzlərlə gəncin müxtəlif dünya universitetlərinə təhsil almağa göndərildiyini diqqətə çatdırıb. Qeyd edib ki, güclü vətənpərvərlik hisslərinə malik gənc nəslin formalaşdırılması, intellektual potensialın milli maraqların həyata keçirilməsi istiqamətində səfərbər edilməsi, peşəkar ordu quruculuğu, milli həmrəyliyin təmin olunması Ulu Öndərin vəsiyyətinin yerinə yetirilməsi Qarabağın azadlığa qovuşmasına gətirib çıxardı. Rektor Heydər Əliyevin müəyyənləşdirdiyi müdrik siyasətin, bu siyasətin sadiqliklə davam etdirilməsinin Azərbaycanı əbədi qoruyacağını, müstəqil dövlətimizin memarı və qurucusunun tarixdə daim qalacağını bildirib.

Tədbirdə **Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev** Ulu Öndər Heydər Əliyevin idarəçiliyi ilə Azərbaycanın bütün sahələrdə qazandığı uğurları nəzərə çatdırıb, ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində bu fenomenal şəxsiyyətin mühüm roluna toxunub. Bildirib ki, bugünkü güclü, inkişaf etmiş, qalib Azərbaycan Heydər Əliyevin şah əsəridir. Görkəmli dövlət xadiminin əsasını qoyduğu mükəmməl idarəçilik konsepsiyası ilə ölkəmizin iqtisadi, hərbi uğurlar qazandığını deyən icra başçısı Qarabağın azadlığını, işğaldan azad olunan torpaqlarda aparılan quruculuğu məhz Heydər Əliyevin müdrik siyasəti, bu siyasətin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilməsi ilə əlaqələndirib.

**Milli Məclisin deputatı Vüqar Rəhimzadə** Ulu Öndər Heydər Əliyevin Azərbaycanı güclü təməllər üzərində inkişaf etdirdiyini, dövlət maraqlarını daim qoruduğunu, milli həmrəyliyə nail olduğunu vurğulayıb. Millət vəkili Heydər Əliyevin Azərbaycanın beynəlxalq siyasi və iqtisadi təşkilatlarla əməkdaşlığının qurulmasına nail olaraq ölkəmizi dünyada tanıtdığını deyib, həmçinin tarixi şəxsiyyətin ordu quruculuğu istiqamətində gördüyü mühüm işləri sadalayıb.

**YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev** çıxış edərək Heydər Əliyevin unikal şəxsiyyət, güclü iradə sahibi və siyasət ustası kimi böyük heyranlıq yaratdığını, mükəmməl xarici, həmçinin daxili siyasətinin Azərbaycana qazandırdığı uğurların qürurverici olduğunu deyib. Tədbirdə Azərbaycanı qüdrətli dövlətə, beynəlxalq auditoriyalarda söz sahibinə çevirən Heydər Əliyevin həyatının çağdaş gəncliyə və bütün gələcək nəsillərə örnək olacağı vurğulanıb.

**M.KAMAL,**
**"Respublika".**

Respublika .- 2024.- 10 dekabr (№ 272).- S.3.